**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**BƏHRUZ VİDADİ oğlu BABA**

# AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTLİNİN ŞİRVAN BƏYLƏRBƏYİLİYİNİN İNZİBATİ VƏ SOSİAL İQTİSADİ TARİXİ

İxtisas: 5503.02 – Vətən tarixi

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
AMEA-nın A.A. Bakıxanov adına Tarix
İnstitunun direktoru akademik: **Y.M.MAHMUDOV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Z.M.HƏSƏNALIYEV**
Tarix üzrə elmlər doktoru **X.S.QASIMOV**

**Aparıcı müəssisə:** Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017 ciil tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 saylı Dissertasiya Şurasının "___" _____ 2018-ci il tarixli iclasında, saat "___"-da keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilovküç., 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.
Avtoreferat "___"___________2018-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Əsası XIX əsrin görkəmli mütəfəkkiri, ictimai-siyasi, elm və mədəniyyət xadimi A.A.Bakıxanov tərəfindən qoyulmuş Azərbaycan tarix elmi təqribən iki əsrə yaxın çox mürəkkəb və keşməkeşli inkişaf yolu keçmişdir. Rusiya işğalı dövründə sovet ideologiyasının güclü basqı və yasaqlarına, mərkəzin diktə etdiyi qondarma konsepsiyaların təsirinə məruz qalan Azərbaycan tarix elmi bir çox hallarda real tarixi gerçəkləri olduğu kimi təqdim etmək imkanından məhrum edilmişdir. Məhz bu səbəblərdəndir ki, sovet dövründə Azərbaycan tarixi üzrə aparılmış tədqiqatların əksəriyyətində çoxlu təhriflər, birtərəfli yanaşmalar, tarixi faktların saxtalaşdırılması halları müşahidə olunur.

1991-ci ildə Azərbaycan xalqı dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra respublikanın sosial-iqtisadi, siyasi, mədəni həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan tarix elminin inkişafında da yeni bir mərhələ başlanmışdır. Müasir dövrdə Azərbaycan tarix elminin qarşısında duran əsas vəzifə tarixi keçmişimizin ayrı-ayrı dövrlərini real tarixi gerçəkliklər əsasında tədqiq etmək, Azərbaycan tarixini vahid milli azərbaycançılıq konsepsiyası zəminində araşdırmaq, sovet ideologiyasının buraxdığı səhvləri aradan qaldırmaqdan ibarətdir.

Səfəvilər dövlətinin tarixi və Şirvan bəylərbəyiliyi mövzusu da sovet tarixşünaslığında bir çox təhrif və saxtalaşdırmalara məruz qalmış problemlərdən biridir. Məhz bu səbəbdəndir ki, müstəqilliyimizin bərpasından 27 il keçməsinə baxmayaraq, Azərbaycan tarixi ilə bağlı yazılmış bəzi dərslik, ümumiləşdirici əsər və monoqrafiyalarda hələ də Səfəvilər dövləti, fars dövləti kimi təqdim olunmaqda davam edir.

Azərbaycan Səfəvilər dövlətinin mühüm inzibati-ərazi vahidlərindən biri olan Şirvan bəylərbəyiliyi müasir Azərbaycan Respublikası ərazisinin böyük bir hissəsini əhatə etməklə 1538-ci ildən 1736-cı ilə qədər mövcud olmuşdur. Səfəvilər dövlətinin şimal sərhədləri boyunca strateji baxımdan mühüm mövqedə yerləşən Şirvan bəylərbəyiliyi özünün sosial-iqtisadi potensialı, zəngin xammal mənbələri baxımından da əhəmiyyətli rol oynamışdır. Beynəlxalq əhəmiyyətli şimal tranzit ticarət - Volqa-Xəzər marşrutu üzərində yerləşən Şirvan bəylərbəyiliyi zaman-zaman dövrün nəhəng dövlətlərinin, o cümlədən Osmanlı, Rusiya, İngiltərəvə s. ölkələrin diqqətini cəlb etmişdir. Azərbaycan və xarici ölkələrin tarixşünaslığında Səfəvilər dövlətinin tarixinə çoxlu sayda tədqiqat əsərləri həsr edilsə də,

Şirvan bəylərbəyiliyinin tarixi ayrıca araşdırma obyekti kimi öyrənilməmişdir. Bu mənada Şirvan bəylərbəyiliyinin tarixinin müstəqil tədqiqat obyekti kimi araşdırılması elmi aktuallıq kəsb edən mövzulardan biridir.

Şirvan bəylərbəyiliyinin tarixi xalqımızın qəhrəmanlıq, işğalçılara qarşı mübarizə salnaməsi ilə də zəngindir. XVI əsrin sonu-XVII əsrin əvvələrində Osmanlı, XVIII əsrin 20-30-cu illərində Osmanlı və Rusiya təcavüzünə məruz qalan Şirvan əhalisi xarici işğalçılara qarşı güclü dirəniş nümunəsi göstərmişlər. Hazırda erməni təcavüzünə məruz qalmış, tarixi torpaqlarımızın bir hissəsini itirmiş Azərbaycan xalqının XVI-XVIII əsrlərdə Şirvan əhalisinin müdaxiləçilərə qarşı mübarizə tarixinin öyrənilməsinə, yetişməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük ehtiyac vardır.

İtririlmiş tarixi Azərbaycan torpaqları içərisində İrəvan, Borçalı, Lori, Pəmbəklə yanaşı Şirvan bəylərbəyiliyinin mühüm mahallarından sayılan Dəmirqapı Dərbənd də vardır. Tarixi Azərbaycanın sərhəd bütövlüyünün təmin edilməsi müstəqil dövlətçiliyimizin, müasir və gələcək nəsillərimizin qarşısında duran əsas missiyadır. Bu missiyanın uğurla yerinə yetirilməsi üçün Şirvan bəylərbəyiliyi tarixinin hərtərəfli araşdırılması, tarixin bizlərə verdiyi dərslərdən nəticələr çıxarılması baxımından önəmli və vacibdir.

**Dissertasiyanın xronoloji çərçivəsi:** Dissertasiya xronoloji baxımdan 1538-1736-cı illəri əhatə edir. Başlanğıc nöqtə kimi 1538-ci ilin götürülməsi Şah I Təhmasib tərəfindən Şirvanşahların daxili müstəqilliyinin ləvğ edilərək Şirvanın Azərbaycan Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərindən birinə çevriməsi, son həddin 1736-cı il olaraq müəyyənləşdirilməsi isə Səfəvilər dövlətinin süqutu ilə bağlıdır. Tədqiqat zamanı bu və ya digər faktların dəqiqləşdirilməsi məqsədi ilə bəzi hallarda qeyd olunan xronoloji çərçivədən kənara çıxılaraq XVI əsrin əvvəlləri və XVIII əsrin 30-40-cı illərində baş vermiş proseslərə də müraciət olunmuşdur.

**Dissertasiyanın mənbəşünaslıq bazası.** Azərbaycan Səfəvilər dövləti, o cümlədən bu dövlətin mühüm inzibati-ərazi vahidlərindən biri olan Şirvan bəylərbəyiliyi tarixinə aid qaynaqları əsasən üç qrupa bölmək olar: 1) Narrativ mənbələr-XVI-XVIII əsrlərdə müxtəlif xalqların təmsilçiləri tərəfindən Səfəvilər sülaləsinin tarixinə həsr olunan salnamə tipli əsərlər; 2) Sənədli qaynaqlar-ayrı-ayrı Səfəvi hökmdarları. Şirvan bəylərbəyilərinin dövrümüzə gəlib çıxmış hökm və fərmanları, həmçinin sədarət divanı,

şəriət məhkəmələrinin qəbalə və qərarları, müqavilə mətnləri, soyurqal və tiyul bağışlanması haqqında təliqələr, qanunnamə və siyahıyaalma sənədləri; 3) Epistolyar səciyyəli mənbələr-XVI-XVIII əsrlərdə müxtəlif Avropa ölkələrindən Səfəvi dövlətinə, həmçinin Azərbaycana gəlmiş səyyah, tacir, missioner və səfirlərin gündəlik və ya səyahətnamələri.

Səfəvilər dövrü, Şirvan bəylərbəyiliyi tarixi üzrə mənbələrin ən mühüm hissəsini səlnamə tipli qaynaqlar təşkil edir. Ümumtarix üslubunda qələmə alınmış səlnamələrin əksəriyyəti kompilyativ xarakter daşıdığından müəllifin yaşadığı, müasiri olduğu dövrə qədər verdiyi məlumatlar ciddi elmi əhəmiyyətə malik olmayıb, əvvəlki səlnamələrdən köçürmədir. Müəllifin yalnız müasiri, iştirakçısı və şahidi olduğu hadisələr haqqındakı məlumat və faktları böyük elmi dəyərə malikdir. Bu qəbildən olan mənbələrin səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, səlnamələrdə daha çox siyasi hadisələr, müharibələr, hökmdarların yürüşləri kimi hadisələrə diqqət ayırmış, sosial-iqtisadi, mədəni və etnoqrafik bilgilərə olduqca az yer verilmişdir. Səlnamələrdə Şirvan bəylərbəyiliyinin tarixi bölgədə baş vermiş mühüm hadisələrlə əlaqədar xatırlanmış, əksər hallarda vilayətin tarixi səlnaməçilərin diqqətindən kənarda qalmışdır. Səlnamə tipli qaynaqların məlumatları olmadan Şirvan bəylərbəyiliyinin siyasi, qismən də sosial-iqtisadi tarixini tam dolğunluğu ilə öyrənmək, təsvir etmək mümkün deyildir.

Səfəvilər tarixi, həmçinin XVI əsrdə Şirvanda baş vermiş hadisələr haqqında maraqlı məlumat verən səlnamələrdən biri Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazinin "Təkmilət əl-əxbar" ("Xəbərlərin təkmili") əsəridir. Dörd fəsildən ibarət olan səlnamənin sonuncu fəslində Şah I İsmayıl və Şah I Təhmasibin hakimiyyəti dövründə baş verən hadisələr təsvir olunmuş və hadisələrin şərhi 1560-1561-ci ilə qədər davam etdirilmişdir. Hadisələri ardıcıllıqla təsvir edən müəllif Şah I İsmayılın Şirvan yürüşləri, İbrahim Şeyxşahla münasibətləri, II Sultan Xəlilin dövründə Səfəvi-Şirvan əlaqələrinin gərginləşməsi, I Təhmasibin Şirvana yürüşü, Şirvan bəylərbəyiləri Əlqas Mirzə, İsmayıl Mirzə və Abdulla xan Ustaclının dövründə baş vermiş hadisələr haqqında maraqlı məlumatlar vermişdir. Araşdırmalar zamanı Əbdi bəy Şirazinin əsərinin Ə.Rəhimli tərəfindən Azərbaycan dilinə tərcüməsindən istifadə olunmuşdur.[1]

---

[1]Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi.Təkmilətül-əxbar.Fars dilindən tərcümə, müqəddimə və şərhlər Ə.H.Rəhimlidir.Bakı: Elm, 1996, 196 s.

Tədqiq olunan mövzu üzrə mühüm qaynaqlardan biri də Həsən bəy Rumlunun "Əhsən ət-təvarix" adlı səlnaməsidir. Ümumtarix üslubunda yazılmış və on cilddən ibarət olan bu əsərin son iki cildi dövrümüzə gəlib çıxmışdır. Səfəvilər dövrünə həsr olunan sonuncu cild 1494-1578-ci illərdə baş vermiş hadisələri əhatə edir. Uzun müddət I Təhmasibin qorçuları sırasında hərbi xidmət edən Həsən bəy Rumlu şahın bir çox hərbi səfərlərində şəxsən iştirak etmiş, təsvir etdiyi hadisələrin bir çoxunun şahidi və iştirakçısı olmuşdur.[1] I Şah Təhmasib dövrünün ən mötəbər mənbəsi sayılan "Əhsən-ət-təvarix" əsərində 1500-1538-ci illərdə Səfəvi-Şirvan münasibətləri haqqında, həmçinin Əlqas Mirzə qiyamı, Abdulla xan Ustaclının bəylərbəyiliyi dövrü, Burhan Mirzə, Qasım Mirzə, Qavus Mirzənin Şirvanda qiyamları haqqında maraqlı məlumatlar öz əksini tapmışdır.[2] Səfəvilər dövlətinin və Şirvanın XVI əsr tarixi üzrə mühüm mənbələrdən biri də Qazi Əhməd Quminin "Xülasət ət-təvarix" əsəridir. Uzun müddət Səfəvi saraylarında müxtəlif vəzifələrdə çalışmış Qazi Əhməd Quminin altı cilddən ibarət olan "Xülasət ət-təvarix" əsərinin beşinci cildi Səfəvilər sülaləsinin tarixinə həsr olunmuşdur.[3] Səfəvilər tarixinin 1590-1591-ci illərə qədərki tarixinin təsvir olunduğu bu səlnamə I Təhmasibin hakimiyyətinin son dövrü, II İsmayıl, Məhəmməd Xudabəndə və I Abbasın hakimiyyətinin əvvəlləri üçün çox mühüm məlumatlarla zəngindir. Səlnamədə qeyd olunan dövrdə Şirvanda baş vermiş hadisələrlə yanaşı, I İsmayıl və I Təhmasibin hakimiyyətləri zamanı Şirvan-Səfəvi münasibətləri haqqında, həmçinin mülkiyyət münasibətləri, vergi və mükəlləfiyyətlər, idarəetmə sistemi kimi məsələlər haqqında da qiymətli faktlara rast gəlinir.

Səfəvilər dövlətinin XVI əsr tarixi üzrə mühüm mənbələrdən biri olan Şərəf xan Bidlisinin iki cildlik "Şərəfnamə" əsərinin ikinci cildində Şirvan tarixi ilə bağlı qiymətli məlumatlar vardır. Uzun müddət Səfəvi sarayında xidmətdə olmuş müəllif hətta bir vaxtlar Şirvanın Mahmudabad və Salyan

---

[1]Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: Elm, 1983,s.8-9

[2]Həsən bəy Rumlu. Əhsən üt-təvarix.(Tarixlərin ən yaxşısı).Fars dilindən tərcümə və şərhlər O.Əfəndiyev,N.Musalı,Kastomonu,Uzanlar,2017,661 s.

[3]Məmmədova Ş.A. Xülasət-ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991.,s.13-14

mahallarının hakimi vəzifəsində çalışmış,[1] 1578-1590-cı illərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri zamanı Osmanlı sultanı III Muradın tərəfinə keçərək, onun Azərbaycan yürüşlərində iştirak etmişdir. I Şah İsmayıl və I Təhmasibin hakimiyyəti dövründə Şirvanda baş vermiş hadisələri də qələmə almış Şərəf xan XVI əsrin 70-80-ci illərində Şirvanda cərəyan edən Səfəvi-Osmanlı qarşıdurması, Şirvanı idarə etmiş bəylərbəyilər haqqında daha ətraflı faktları qeydə almışdır. Tədqiqat zamanı Şərəf xan Bidlisinin "Şərəfnamə" əsərinin rus şərqşünası E.İ.Vasilyevanın tərəfindən 1967-1976-cı illərdə tərcümə etdiyi nəşrindən istifadə olunmuşdur.[2]

Problem üzrə aparılan araşdırmalar zamanı XVI əsr səlnaməçiləri Xürşah ibn Qubad əl-Hüseyninin və Budaq Qəzvinin səlnamələrinə də müraciət olunmuşdur. Əhmədnahar hakimi Sultan Bürhan Nizamşah tərəfindən Səfəvi sarayına səfir göndərilmiş Xürşah 1545-1546-cı illərdə Səfəvi sarayında olmuş, I Təhmasibin "Gürcüstana" və Şirvana yürüşlərində (1546) iştirak etmiş, 1563-1564-cü illərə qədər Səfəvi ərazisində çalışmışdı. Müəllifin yazdığı "Tarix-i elçi-yi Nizamşah" ("Nizamşahlar elçisinin tarixi") əsərində 1537-ci il Şirvan üsyanı, Əlqas Mirzə qiyamı və s. kimi hadisələr haqqında ətraflı məlumatlar öz əksini tapmışdır[3].

Səfəvilər dövlətinin tarixi üzrə ən mükəmməl səlnamələrdən biri də İsgəndər bəy Türkman Münşinin müqəddimə və iki cilddən ibarət iri həcmli "Tarix-i aləm arayi Abbasi" əsəridir. Dövrünün mükəmməl təhsilini almış İsgəndər bəy Səfəvi sarayında münşi əl-məmalik vəzifəsində çalışmış, I Şah Abbasın bir çox səfərlərində şəxsən iştirak etmiş, qələmə aldığı hadisələrin çoxunun iştirakçısı və şahidi olmuşdur. Müəllif I İsmayıl və I Təhmasibin dövründə Şirvanda baş vermiş hadisələri özündən əvvəlki səlnamələrdən götürsə də, onları dövrümüzə gəlib çatmamış qaynaqlardan əldə etdiyi materiallarla zənginləşdirmişdir. İsgəndər bəy II İsmayıl və Məhəmməd Xudabəndə dövründə Səfəvilər tarixində, o cümlədən Şirvan

---

[1] Петрушевский И.П. Очерки по истории феодальных отношенный в Азербайджане и Армении в XVI-начале XIX вв., Ленинград: 1949.,s.30

[2]Шараф-хан ибн Шамсаддин Бидлиси. Шараф-наме. т. II. Перевод, предисловие, примечания и приложения Е.И. Васильевой. Москва: Наука: 1976, 356 с.

[3] - خورشاهبنقبادالحسینی. تاریخایلچیینظامشاه،نسخهخطیموزهبریتانیا

bəylərbəyiliyi ərazisində baş vermiş hadisələri daha ətraflı təsvir etmiş, 1578-1581-ci illərdə Şirvanda Səfəvi-Osmanlı qarşıdurmasına geniş yer ayırmış, Aras xan Rumludan sonra Şirvan bəylərbəyi təyin edilən qızılbaş əmirlərinin fəaliyyətinə də toxunmuşdur. Salnamədə, həmçinin XVII əsrin əvvələrində Şah I Abbasın Şirvanı işğaldan azad etmək uğrunda mübarizəsi, 1605-1629-cu illərdə bölgəni idarə edən Şirvan bəylərbəyiləri haqqında, bölgədə soyurqal və tiyulların bağışlanması, sosial hərəkatlarla bağlı qiymətli faktlara yer verilmişdir. Araşdırma zamanı İsgəndər bəy Münşinin əsərinin Ş.Fərzəlibəyli tərəfindən Azərbaycan dilinə edilmiş tərcüməsindən istifadə olunmuşdur[1].

Səfəvilər dövlətinin XVII əsr tarixinin nadir mənbələrindən biri də Məhəmməd Tahir Vahidin "Tarix-i Tahir-i Vahid", "Tarix-i şah-i Abbasi sani" və yaxud "Abbasnamə" adları altında tanınan səlnaməsidir. 1645-ci ildə II Şah Abbasın saray tarixçisi, Süleyman şahın dövründə baş vəzir təyin olunan Məhəmməd Tahir Vahidin səlnaməsində II Şah Abbasın dövründə Şirvanda baş vermiş hadisələr, Şirvan bəylərbəyi Xosrov xan, Baxtam-Mehrəli xan, Hacı Mənuçöhr xan, Məhəmməd xan, Nəcəfqulu xan haqqında bəzi məlumatlar öz əksini tapmışdır. Araşdırma zamanı Məhəmməd Tahir Vahidin əsərinin h. 1329-cu il Ərak nəşrindən istifadə olunmuşdur[2].

Səfəvilər tarixi üzrə ən mükəmməl qaynaqlardan biri də 1725-ci ildə Mirzə Səmia tərəfindən qələmə alınmış "Təzkirət əl-muluk" əsəridir. 1722-ci ildə İsfahanı ələ keçirərək şah taxtına əyləşən əfqan üsyançılarının başçısı Mahmudun göstərişi ilə yazılmış bu əsər dövrünün digər səlnamələrindən fərqlənir. Belə ki, bu əsərdə daha çox Səfəvi dövlətinin inzibati idarəetmə sistemi, ərazi vahidləri, maliyyə sistemi, dövlət idarəetmə təsisatları, mənsəb və vəzifələr haqqında digər qaynaqlarda əksini tapmayan çox nadir faktlara geniş yer verilmişdir. Səlnamədə həmçinin Şirvan bəylərbəyiliyi, onun tərkibinə daxil olan mahallar, bəylərbəyi və mahal hakimlərinin gəlirləri haqqında qiymətli faktlar öz əksini tapmışdır. Problemin araşdırılması zamanı Mirzə Səmianın

---

[1]İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. I. c. Fars dilindən çevirən Ş.Fərzəliyev. Bakı: Şərq, 2010, 1144 s.

[2]محمد طاهر وحید قزوینی. عباسنامه یا شرح زندگانی ۲۳ ساله شاه عباس ثانی ( ۱۰۵۲-

sәlnamәsinin V.F.Minorski tәrәfindәn ingilis dilindә edilmiş nәşri ilә yanaşı, h. 1368-ci il Tehran nәşrindәn dә istifadә edilmişdir[1].

Şirvan bәylәrbәyiliyinin tarixinin öyrәnilmәsindә sәlnamәlәrlә bәrabәr, sәnәdli qaynaqlar da misilsiz әhәmiyyәtә malikdir. Sәlnamәlәrlә müqayisәdә sәnәdli qaynaqların çox az bir hissәsi dövrümüzә qәdәr gәlib çıxmışdır. Bununla belә, sәnәdli qaynaqlar dövrün real gerçәklәrinin bәrpa edilmәsi baxımından әvәzsiz әhәmiyyәtә malikdir. Sәlnamәlәrdә daha çox dövrün siyasi proseslәri әksini tapdığı halda, sәnәdli qaynaqlarda sosial-iqtisadi, mülkiyyәt münasibәtlәri, vergi vә mükәllәfiyyәtlәr haqqında daha zәngin mәlumatlar toplanmışdır. Sәfәvi şahlarının, vilayәt hakimlәrinin, sәdarәt divanı, şәriәt mәhkәmәlәrinin hökm, fәrman, tәliqәlәri dövrün sosial tarixi ilә bәrabәr qismәn dә olsa, siyasi tarixi ilә bağlı mәsәlәlәrin öyrәnilmәsi baxımından da әhәmiyyәtlidir. Sәfәvilәr dövrünә aid dövrümüzә gәlib çıxmış sәnәdli qaynaqların bir qismi vaxtilә bu imperatorluğun tәrkibindә olmuş müxtәlif ölkәlәrin tәdqiqatçıları tәrәfindәn nәşr olunmuşdur. A.D.Papazyan, V.S.Puturidze, H.Busse, B.C.Martin, Ә.Nәvai, Z.Sabityan tәrәfindәn nәşr olunan Sәfәvi dövrü sәnәdli qaynaqları dövrün sosial-iqtisadi problemlәrini öyrәnmәk üçün әhәmiyyәtli olsa da, hәmin sәnәdlәrin heç dә hamısı bilavasitә Şirvan bәylәrbәyiliyinә aid deyildir. Şirvan bәylәrbәyiliyinә, ümumiyyәtlә Azәrbaycan tarixinә aid Sәfәvi dövrü sәnәdli qaynaqlarının nәşr olunmasında T.M.Musәvinin әmәyi xüsusi olaraq qeyd olunmalıdır. Bu baxımdan müәllifin 1965, 1967 vә 1977-ci illәrdә nәşr etdiyi "Orta әsr Azәrbaycan tarixinә dair fars dilindә yazılmış sәnәdlәr", "Bakı tarixinә dair orta әsr sәnәdlәri" vә "Orta әsr Azәrbaycan tarixinә dair fars dilli sәnәdlәr" adlı mәcmuәlәri diqqәtәlayiqdir. Müәllifin 1965-ci ildә nәşr etdiyi mәcmuәyә daxil edilmiş 20 sәnәdin 13-ü bilavasitә Şirvan bәylәrbәyi ilә bağlıdır. Şah Sәfinin 1633-cü il tarixli fәrmanı [sәnәd № 7], II Şah Abbasın 1648-ci il tarixli [sәnәd № 8], II şah Abbasın 1648-ci il tarixli [sәnәd № 9], II Şah Abbasın 1651-ci il tarixli [sәnәd № 10], Şah Sultan Hüseynin 1701-ci il tarixli [sәnәd № 11], Şah Sultan Hüseynin 1702-ci il tarixli [sәnәd № 12], fәrmanları, Lәzgi Surxabın 1633-cü il tarixli hökmü [sәnәd № 13] vә Nadir xan Әfşarın 1734-cü il tarixli [sәnәd № 14] fәrmanı Şәki mәlikliyinә

[1]Tadhkirat Al-Muluk. A manual of Safavid Adminastration (cirica 1137/1725) Persian textin facsimile (B.M. or 9496)/ Translated and explaind by Minorsky. London. 1943, 348 s.

aiddir və bu sənədlər Şəki mahalında sosial münasibətlər, vergi və mükəlləfiyyətlər, əhalinin sosial tərkibi, Şəkidə məlik mənsəbi, bu mənsəbi tutmuş tarixi şəxsiyyətlərin kimliyini müəyyənləşdirmək, öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. [42, s.50-61]. Şirvan bəylərbəyi Yusif xanın 1612-ci il tarixli hökmü [sənəd № 15], Əhməd xanın 1705-ci il tarixli fərmanı [sənəd № 16] və Şeyxəli xanın 1787-ci il tarixli hökmü [sənəd № 17] Şirvan bəylərbəyi tərkibinə daxil olan Tahircal kəndinə aid olmaqla bölgədə vergi siyasəti, idarəetmə sisteminin dəqiqləşdirilməsi üçün dəyərlidir. Bu məcmuəyə daxil edilmiş Şah Sultan Hüseynin 1704-cü il [sənəd №18] və 1721-ci il tarixli [sənəd № 19] fərmanları isə XVIII əsrin əvvələrində Şirvanda baş vermiş siyasi proseslərə aiddir[1].

T.M.Musəvinin 1967-ci ildə nəşr etdiyi topluya daxil olmuş sənədlər içərisində I Şah Təhmasibin 1547-ci il tarixli, 1555-ci il və 1564-cü il tarixli fərmanları xüsusi əhəmiyyətə malikdir. Bu fərmanlar Bibiheybət məqbərəsinə məxsus vəqf əmlakı, vəqf torpaq mülkiyyəti formasının mahiyyətini, mütəvəlli istilahının hüquq və səlahiyyətlərini, Bakı limanın iqtisadi-ticarət əhəmiyyətini öyrənmək üçün böyük elmi dəyərə malikdir[2].

T.Musəvi tərəfindən 1977-ci ildə nəşr olunmuş sənədlər toplusuna daxil edilən 45 sənədin 14-ü Şirvan bəylərbəyiliyi ərazisinə daxil olan mahallar, əsasən Şəki mahalına aiddir. Doğrudur, bu sənədlərin üçü, Nadir şahın 1737-ci il [sənəd № 11], 1739-cu il [sənəd № 12] və 1746-cı il [sənəd № 13] tarixli Şəki ölkəsinin məlikliyi haqqındakı fərmanları [44, s.76-79] xronoloji baxımdan tədqiq olunan mövzudan kənara çıxsa da, bölgənin siyasi tarixinin tədqiqi baxımından heç də əhəmiyyətsiz deyildir. Həmin topluya daxil edilmiş I Şah Təhmasibin 1550-ci il [sənəd № 1], 1554-cü il [sənəd № 2], I Şah Səfinin 1633-cü il [sənəd № 3], II Şah Abbasın 1643-cü il [sənəd № 4], Şirvan bəylərbəyi Xosrov xanın 1646-cı il [sənəd № 5], II Şah Abbasın 1650-ci il [sənəd № 6], II Şah Abbasın 1650-ci il dekabr [sənəd № 7], II Şah Səfinin 1667-ci il [sənəd № 8], Süleyman şahın 1691-ci il [sənəd № 9], Şah Sultan Hüseynin 1701-ci il [sənəd № 10] tarixli fərman və hökmləri, həmçinin Süleyman şahın 1668-ci il tarixli [sənəd № 15]

---

[1]Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı: Azərbaycan SSR EA, 1965.s.63-67.
[2]Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı: Azərbaycan SSR EA, 1967.s.63-64;83-84.

Dərbənd qalası üçün qorçular təyin edilməsi haqqındakı fərmanı[1] Şirvan bəylərbəyiliyində sədr, vəzir, bəylərbəyi, məlik, kələntər, darğa, kəndxuda və s. kimi təsisatların, müxtəlif vergi və mükəlləfiyyətlərin, rəiyyətlə dövlət orqanlarının qarşılıqlı münasibətlərinin, həmçinin bölgənin siyasi tarixinin öyrənilməsi üçün çox zəngin faktiki materiallara malikdir. Bu sənədli qaynaqları elmi dövriyyəyə, araşdırmaya cəlb etmədən XVI-XVIII əsrlərdə Şirvanın sosial münasibətlər tarixini tədqiq etmək mümkün deyildir.

Səfəvilər dövrünə aid Ermənistanın Matenadaran əlyazmalar fondunda saxlanılan sənədlərin bir qismini A.D.Papazyan nəşr etirmişdir. Üç hissədən ibarət olan bu sənədlər toplusunun ilk iki hissəsinə fərmanlar, üçüncü hissəsinə isə daşınmaz əmlakın alqı-satqısını əks etdirən qəbalələr daxil olunmuşdur. Topluya daxil olan sənədlərin əksəriyyəti Üçkilsə katolikosluğu və erməni tarixçiləri tərəfindən "erməni kilsəsi" kimi təqdim olunan Naxçıvan, Zəngəzur, Qarabağ və s. ərazilərdəki alban kilsə və monastrlarına aiddir. Toplunun I hissəsində Səfəvi hökmdarlarının XVI əsrə aid, xüsusilə də I Şah İsmayıl və I Şah Təhmasibin fərmanları vəqf torpaq mülkiyyətinin mahiyyəti, dövrün vergi və mükəlləfiyyətlər sisteminin araşdırılması baxımından əhəmiyyətlidir[2]. Toplunun ikinci hissəsinə daxil edilmiş iki fərmanın isə Şirvan bəylərbəyiliyinin tarixi ilə bağlılığı vardır. Bu fərmanların hər ikisi 1650-ci ildə II Şah Abbas tərəfindən imzalanmışdır. Birinci fərmanda II Şah Abbas Üçkilsənin vəqf əmlakına aid olan, lakin zəbt olunmuş bağ və dəyirmanların monastrlara qaytarılması üçün Çuxur-Səəd bəylərbəyinə, həmçinin Azərbaycanın bütün mahal hakimlərinə, o cümlədən Şirvan və Şamaxı hakimlərinə göstəriş vermişdir[3]. Fərmanın mətnindən aydın olur ki, Şirvan bəylərbəyi ərazisində də Üçkilsə katolikosluğuna məxsus vəqf əmlakı-bağ sahələri və dəyirmanlar olmuşdur.

II Şah Abbasın 1650-ci il tarixli digər fərmanında Şamaxı yeparxiyasının Üçkilsəyə tabe edilməsi və Gəncəsar katolikosluğunun

---

[1]Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər. (XV-XVII əsrlər) Bakı: Elm. 1977.s.76-79.

[2] Персидские документы Матенандара. (XV-XVIвв). Указы, т, 1, вып. 1, Составил А.Д. Папазян. Ереван: АН Армянской ССР, 1956. s.173-175.

[3] Персидские документы Матенандара. (1601-1650 гг). Указы, т, 1, вып. 2, Составил А.Д. Папазян. Ереван: АН Армянской ССР, 1959. s.366-368.

Şamaxı yeparxiyasının işlərinə qarışmamasına göstəriş verilmiş və bu barədə hələ 1634-cü ildə I Şah Səfinin də fərmanının olması xatırlanmışdır[1]. Fərmandan aydın olur ki, Şamaxı yeparxiyasına nəzarət uğrunda Üçkilsə və Gəncəsar katolikosları arasında gedən rəqabət sonda birincinin qələbəsi ilə nəticələnmişdir.

Şirvan bəylərbəyiliyinin sosial-iqtisadi tarixinin öyrənilməsində memuar xarakterli mənbələr-səyyah gündəlikləri də böyük əhəmiyyətə malikdir. Məlum olduğu kimi, XVI-XVII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri, həmçinin Osmanlı işğallarının Qərb istiqamətində genişlənməsi ilə əlaqədar olaraq Səfəvilər dövləti ilə Qərbi Avropa ölkələri arasında diplomatik əlaqələr daha intensiv xarakter almışdı. Avropanın müxtəlif ölkələrindən Səfəvi ərazisinə göndərilmiş səfirlər, səyyahlar, tacir və missionerlər səfər etdikləri bölgələr haqqında əldə etdikləri məlumatları yol gündəliklərində qeydə almış, səfərləri başa çatdıqdan sonra həmin qeydlər əsasında hesabat və səyahətnamələr yazmışdılar. Səyyah gündəliklərində dövrün siyasi hadisələrinə az yer verilsə də, əsas diqqət Səfəvilər dövlətinin sosial-iqtisadi həyatına, dövlət idarəetmə məsələlərinə, şəhər həyatı, sənətkarlıq, ticarət əlaqələri, ticarət yolları, əhalinin mədəni-mənəvi həyatı və s. kimi problemlərin təsvirinə yönəlmişdir.

XVI-XVIII əsrlərdə Avropanın müxtəlif ölkələrindən Səfəvi ərazisinə gəlmiş səfir, səyyah, tacir və missionerlərin bir qismi bilavasitə Şirvan bəylərbəyiliyi ərazisində də səfərdə olmuşdular.

XVI əsrdə Şirvan bölgəsində səfərdə olmuş İngiltərənin "Moskva" ticarət şirkətinin təmsilçilərinin öz hesabat və səyahətnamələrində Şirvan şəhərlərinin iqtisadi-ticarət həyatı, bəylərbəyiliyin idarə sistemi haqqında ətraflı məlumatlar vermişlər. 1555-ci ildə yaradılmış "Moskva" ticarət şirkəti Rusiya ərazisi vasitəsi ilə Şimal ticarət xəttinə-Volqa-Xəzər yoluna çıxmaqla Şərq ölkələri ilə ticarət əlaqələri qurmağa can atırdı. "Moskva" ticarət şirkətinin 1562-ci ildə təşkil edilmiş birinci ekspedisiyasının tərkibində Azərbaycana gəlmiş A.Cenkinson, 1563-cü il II ekspedisiyanın tərkibində olmuş Tomas Olkok, Corc Renn, Riçard Cini, 1565-1567-ci ilin III ekspedisiyanın üzvləri Riçard Conson, Alesandr Kitqin, Artur Edvards, 1568-1569-cu il IV ekspedisiyanın üzvləri A.Edvards, Con Spark, Lorens Çepmen, Xristofor Dovset, Riçard Pinql, 1569-1574-cü illər V ekspedisiyanın rəhbərləri Tomas Binster və Ceferi Deket, 1580-ci ildə

---

[1]Yenə orada, s.375-376.

təşkil edilmiş VI ekspedisiyanın təmsilçisi Xristofor Berrou Şirvanın şəhərləri, ticarət həyatı, xüsusilə də ipək ticarəti haqqında çox nadir məlumatlar vermişlər[1]. 1539-cu ildə Azərbaycanda səfərdə olmuş Mikele Membre və 1571-ci ildə Səfəvi sarayına göndərilmiş Vinçenso Alessandrinin Şirvan bölgəsində olmasalar da, onların gündəliklərində dövlət idarəetmə təsisatları, imperatorluğun inzibati-ərazi vahidləri, iqtisadi-ticarət həyatı haqqında diqqət çəkən məlumatlar verilmişdir[2].

XVII əsrdə Səfəvi ərazisində səfərdə olmuş səyyahlar da Şirvan haqqında maraqlı məlumatlar qeydə almışlar. Dövrün görkəmli elm adamı olan A.Oleari Holişteyn hersoqu III Fridrix (1616-1634) tərəfindən Moskva və Səfəvi dövlətinə göndərilən səfirliyin (1633-39) katibi kimi 1636-1638-ci illərdə bilavasitə Azərbaycan torpaqlarında olmuş, Şirvan bəylərbəyiliyi haqqında olduqca zəngin informasiya toplamışdır. 1643-cü ildə qələmə aldığı "Səyahətnamə"də A.Oleari demək olar ki, Şirvanın əksər yaşayış məntəqələri, Dərbənd, Niyazabad, Şabran, Bakı, Şamaxı, Ərəş və s. şəhərləri, bəylərbəyiliyin idarə sistemi, əhalinin iqtisadi həyatı, ticarət əlaqələri, ipək istehsalı, təhsil sistemi, mədəni-mənəvi həyatı, ayin və mərasimlərini təsvir etmişdir. Tədqiqat zamanı A.Olearinin səyahətnaməsinin rus dilinə tərcümə olunmuş 1870 və 1906-cı il nəşrlərindən istifadə olunmuşdur[3].

Mövzu ilə bağlı qiymətli "Səyahətnamə"lərdən biri də 1632-1668-ci illərdə dəfələrlə Səfəvi ərazisində, o cümlədən Azərbaycanda və Şirvanda səfərdə olmuş fransız taciri Jan Batis Tavernyenin gündəliyidir. Müəllifin bütövlükdə Səfəvi dövlətinin sosial-iqtisadi və ticarət həyatı, əhalinin sosial tərkibi, 1667-ci il Şamaxı zəlzələsi və onun nəticələri haqqındakı məlumatları diqqəti daha çox cəlb edir. Səyyahın Əbu Turab Nuri

---

[1]Английские путешествнники в Московском Государстве. Перевод английского Ю.В. Готье. Ленинград: Соц. ЭСКИЗ, 1937, 308 с.

[2]Venesiyalılar Şah I Təhmasibin sarayında. MikeleMembre və Vinçenso Alessandri. (İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvi O.Əfəndiyevindir). Bakı: Təhsil, 2005, 112 s.

[3] Адам Олеарий. Подробное описание путешествия Гольшитинского посольство в Московию и Персию в 1633, 1636 и 1639 годах. Перевод с немец. П. Барсова, Москва:1870.69.Адам Олеарий. Описание путешествия в Московию и через Московию в Персию и обратно. ФАН лит-ра. СПБ. 1906. 1939, 159 с.

tərəfindən fars dilinə tərcümə edilərək Tehranda nəşr olunmuş "Səyahətnamə"sindən istifadə edilmişdir[1].

Şirvan bəylərbəyiliyinin XVII əsrin ortaları tarixinin öyrənilməsi üçün çox qiymətli qaynaqlardan biri Osmanlı səyyahı Övliya Çələbinin gündəliyidir. 1647-ci ildə Azərbaycanda səfərdə olmuş Ö.Çələbi Şirvan haqqında Ərəş, Şamaxı, Bakı, Niyazabad, Şabran, Dərbənd şəhərləri, ipəkçilik, ticarət əlaqələri, Şirvanın ziyarətgahları, memarlıq abidələri, neft istehsalı haqqında zəngin məlumatlar vermişdir[2].

XVII əsr Avropa səyyahlarından olan Jan Streysin "Səyahətnamə"sində də Şirvan bölgəsi haqqında maraqlı məlumatlar vardır. Uzun səyahətlərdən sonra Moskvada rus dövlət qulluğuna girən J.Streys Qaytaq hakimi tərəfindən əsir alınmış, 1670-1672-ci illərdə qul kimi Dərbənd, Şamaxı və Ərdəbil şəhərlərində yaşamış, Şirvan şəhərləri, bölgənin iqtisadi-ticarət həyatı, neft hasilatı, Şamaxının karvansaraları haqqında qiymətli məlumatlar vermişdir[3].

XVII əsrin 80-ci illərində Səfəvi ərazisində, həmçinin Şirvan bəylərbəyiliyində səfərdə olmuş alman alimi və səyyahı Engelbert Kempferin gündəliyində Şirvan şəhərləri, Xəzər dənizi, Bakıda neft hasilatı, ticarət əlaqələri və s. kimi problemlər haqqında qiymətli faktlar öz əksini tapmışdır. Tədqiqata E.Kempferin "Səyahətnamə" sinin Keykavus Cahandari tərəfindən fars dilinə edilmiş tərcüməsi cəlb olunmuşdur[4]. Problemin araşdırılması zamanı bu və ya digər məsələlərin dəqiqləşdirilməsi və daha ətraflı şərhi ilə bağlı olaraq bilavasitə Şirvan bölgəsində səfərdə olmamış Avropa səyyahlarından Don Qarsiya de Silva, Pyetro della Valle, Jan Şarden, Sanson, Korneli de Bryuin, C.Honvey və başqalarının da "Səyahətnamə"lərinə müraciət olunmuşdur.

---

[1] - ژان باتیست تاورنیه. سفرنامه تاورنیه. ترجمه ابوتراب نوری. اصفهان:چاپخانه پروین، ه.1336،ص .719

[2]Evliya Ç. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi prof. S.M. Onullahi. Bakı: Azərbaycan, 1997, 87 s.

[3]Стрейс Я.Я. Три путешествия. Перовод с немецкого на русск. Э.Бародиной. Москва: ОГИЗ-СОЦ ЭКГЗ 1935.s.144-246.

[4] - فضلی اصفهانی . افضا التواریخ. نسخه ی خطی موزه ی بریتانیا. ص195.

Şirvan bəylərbəyiliyinin sosial-iqtisadi tarixinin öyrənilməsi üçün Qərbi Avropa səyyahları ilə yanaşı XVI-XVII əsrlərdə Azərbaycanda səfərdə olmuş Rusiya səfir, səyyah və tacirlərinin hesabat və səyahətnamələri də böyük elmi əhəmiyyətə malikdir. Bu baxımdan XVII əsrin I yarısında Səfəvi sarayına elçi kimi göndərilmiş M.N.Tixonov, İ.Brexov, Q.Şaxmatov, M.P.Baryatinski, A.Suxanovun, 1623-cü ildə bölgədə olmuş rus taciri F.A.Kotovun gündəliklərində Şirvanın idarəetmə sistemi, sosial-iqtisadi vəziyyəti və ticarət həyatı haqqında maraqlı məlumatlar vardır[1]. XVIII əsrin əvvəlinə aid Rusiya səfir, səyyah və qafqazşünaslarından A.Volınski, P.Butkov, İ.Q. Qerber, İ.Lerxin, XVII əsr erməni səyyahı Əylisli Zəkəriyyənin hesabat və gündəliklərində də Şirvanın siyasi-iqtisadi, sosial və ticarət tarixi ilə bağlı çox qiymətli məlumatlar öz əksini tapmışdır.

**Mövzunun öyrənilməsi səviyyəsi.** Şirvan bəylərbəyiliyinin sosial-iqtisadi tarixi ayrıca tədqiqat obyekti kimi nə Azərbaycan tarixşünaslığında, nə də xarici ölkələrin şərqşünaslığında araşdırılmamışdır. Bu heç də o demək deyildir ki, ümumiyyətlə tarixşünaslığımızda bu problemlə bağlı heç bir tədqiqat aparılmamışdır. Səfəvilər dövlətinin, həmçinin Şirvanın XVI-XVIII əsrlər tarixinə həsr olunmuş bir çox tədqiqat əsərlərində araşdırma obyekti kimi seçilmiş mövzunun ayrı-ayrı problemlərinə də yeri gəldikcə toxunulmuşdur.

Azərbaycan tarix elminin banisi sayılan A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində tarixşünaslıqda ilk dəfə olaraq tədqiqata cəlb edilən mövzulardan biri də Səfəvilər dövründə Şirvan bölgəsinin tarixi olmuşdur. Ən qədim dövrlərdən başlayaraq Şivan tarixini mənbələr əsasında tədqiq edən A.Bakıxanov əsərin bir fəslini Şirvanın 1501-1736-cı illər tarixinə həsr etmişdir. Daha çox dövrün siyasi hadisələrinə yer verən müəllif 1500-1538-ci illərdə Şirvanşahların Səfəvilərlə münasibətləri, Şirvan bəylərbəyiliyinin yaranması, 1538-1736-cı illərdə Şirvan bəylərbəyiləri olmuş tarixi şəxsiyyətlər, Şirvanşah sülaləsi varislərinin hakimiyyət uğrunda mübarizəsi, Şirvan uğrunda gedən Səfəvi-Osmanlı savaşları və

---

[1]Путешественники об Азербайджане. Под редакцией Э.М.Шахмалиева. т.I, Составиль З.И. Ямпольский. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1961, с. 185-214. Хожение Купца Федота Котова в Персию. Москва: Восточная Литература, 1958, 110 с.

XVIII əsrin əvvələrində xalq üsyanları kimi problemlərə geniş yer vermişdir[1].

Şirvanşahlar dövləti tarixinin görkəmli tədqiqatçısı S.Aşurbəylinin əsərləri xüsusilə qeyd olunmalıdır. Müəllif bölgənin tarixinə yüzlərlə elmi məqalə və iri həcmli üç monoqrafiya həsr etmişdir. S. Aşurbəylinin "Şirvanşahlar dövləti" monoqrafiyası bölgənin VI-XVI əsrlər tarixinə həsr olunmuşdur və monoqrafiya XVI əsrdə Şirvan-Səfəvi münasibətləri, Şirvanşahların daxili müstəqilliyinin ləğv edilməsi səbəbləri, Şirvanın ilk bəylərbəyiləri, XVI əsrin 40-80-ci illərində Şirvanşahların varislərinin öz müstəqilliklərini bərpa etmək uğrunda mübarizəsi, Şirvanın sosial-iqtisadi, ticarət həyatı, vergi sistemi və s. kimi problemlər araşdırılmışdı[2]. Lakin əsər XVI əsrin 80-ci illəri ilə məhdudlaşdığından Şirvan bəylərbəyiliyinin XVII-XVIII əsrlər tarixinə yer verilməmişdir.

S.Aşurbəylinin orta əsrlər dövründə Bakı şəhərinin tarixinə həsr etdiyi monoqrafiyasının müvafiq bölümündə Şirvan bəylərbəyiliyinin mühüm mahalı və beynəlxalq əhəmiyyətli liman şəhəri olan Bakının siyasi tarixi, şəhərin və Abşeronun iqtisadi həyatı, neft hasilatı, duz istehsalı, sənətkarklıq və ticarət, əhalinin sosial tərkibi, vergi sistemi, torpaq mülkiyyəti, xüsusilə də tiyul və vəqf torpaqları kimi problemlər çoxsaylı mənbələr əsasında araşdırılmışdır[3].

Müəllifin orta əsrlərdə Azərbaycanın Hindistanla iqtisadi və mədəni əlaqələr tarixinə həsr olunmuş araşdırmasında XVI-XVIII əsrlərin I yarısında Şirvan şəhərlərinin-Şamaxı, Bakı, Dərbənd, Ərəş və s. Hindistanla ticarət əlaqələri, ipək ticarəti, Şirvanın iqtisadi həyatında hind tacirlərinin rolu məsələsinə də toxunulmuşdur. [4]

Səfəvilər dövrünün görkəmli tədqiqatçılarından biri də Y.M.Mahmudovdur. Öz araşdırmalarını əsasən XV-XVII əsrlərdə Azərbaycanın diplomatik əlaqələr tarixinə həsr edən müəllif dövrün problemləri ilə bağlı yüzlərlə elmi məqalənin və onlarla monoqrafiyanın müəllifidir. Müəllif bilavasitə Şirvan bəylərbəyiliyi tarixini araşdırmasa da,

[1]A.A.Bakıxanov "Gülüstani-İrəm" Bakı: Mömin, 2001, s.103-161.
[2]Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, Avrasiya press, 2006, s. 276-344.
[3]Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı: Avrasiya press, 2006, s. 190-274.
[4]Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990, 152 с.

XV-XVII əsrlərdə bölgənin daxili və əsasən də xarici ticarət əlaqələri probleminə geniş yer vermiş, Səfəvilər dövründə Azərbaycana gəlmiş səyyah, səfir, tacir və missionerlərin fəaliyyətini araşdırmış, onların hesabat və gündəliklərinin Azərbaycana aid hissələrini dilimizə tərcümə etmişdir[1].

Azərbaycan tarix elmində Səfəvilər dövləti tarixinin ilk tədqiqatçılarından olan O.Əfəndiyev öz araşdırmalarında Şirvanın XVI əsr tarixinə də yer vermiş, I İsmayıl, I Təhmasib və Məhəmməd Xudabəndənin hakimiyyəti dövrlərində Şirvanda baş vermiş siyasi hadisələrə, bölgənin iqtisadi-ticarət əlaqələrinə toxunmuşdur. Müəllif "Moskva" ticarət şirkətinin ekspedisiyaları, XVI əsrdə torpaq siyasəti, vergi və mükəlləfiyyətlər sistemi məsələlərini şərh edərkən, mənbələrin Şirvanla bağlı məlumatlarından iqtibaslar gətirmişdir[2].

Səfəvilər dövlətinin XVII əsr tarixini tədqiq edən Ə.Rəhmani öz monoqrafiyasında Şirvan bəylərbəyiliyinin siyasi, sosial-iqtisadi tarixini də diqqətdən kənarda qoymamışdır. Müəllifin XVII əsrdə Şirvan bəylərbəyiləri haqqındakı məlumatları, əhalinin sosial tərkibi, Şirvanın inzibati-ərazi vahidləri, mülkiyyət formaları, vergi siyasəti, ticarət əlaqələri haqqındakı məlumatları XVII əsrin mənbələri əsasında təhlil olunmuşdur[3].

Səfəvilər dövrünün tədqiqatçılarından olan Z.H. Bayramlı digərlərindən fərqli olaraq daha çox dövlətin etnik mahiyyəti, idarə strukturunda qızılbaş türk əyanlarının rolu problemlərini əsas tədqiqat obyektinə çevirmişdir. Müəllif dövrün zəngin mənbələri əsasında Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərinin hər biri, o cümlədən Şirvan bəylərbəyiliyi vəzifəsini tutan əmirlərlə bağlı yeni elmi faktları dövriyyəyə daxil etmişdir[4].

Azərbaycanın orta əsrlər tarixinin tanınmış tədqiqatçısı İ.P.Petruşevski öz araşdırmalarında Şirvan bəylərbəyiliyinin siyasi, sosial-iqtisadi tarixinin

---

[1]Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri. Bakı: Təhsil, 2006;Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1980. 119 s; Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı: Gənclik, 1977, 138 s.

[2]Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.

[3]Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм,1981, 239 с

[4]Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarəetmə sistemi. Bakı, ADPU, 2006, 258 s.;Bayramlı Z. H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.

müxtəlif aspektlərinə toxunmuş, bölgədə mövcud olan vergi və mükəlləfiyyətlər, torpaq mülkiyyət formaları ilə bağlı faktlar gətirmişdir[1].

Mövzu ilə bağlı tarixi ədəbiyyatlarda qısa şərhindən də göründüyü kimi bəzi tədqiqatçılar əsərlərində Şirvan bəylərbəyiliyinin XVI əsr, bəziləri XVII əsr tarixinə toxunsalar da, bütövlükdə Şirvan bəylərbəyiliyinin sosial-iqtisadi tarixi ayrıca araşdırma obyektinə çevrilməmişdir. Bununla belə tədqiqat zamanı Azərbaycan Səfəvi dövlətinin tarixinə həsr olunmuş bir sıra araşdırmalara, M.Heydərov, Ş.Fərzəliyev, M.Nemətova, D.Həsənzadə, R.Muğanlinski, A.Baxşəliyev, D.Əzimli, H.Fərəh, R.Dadaşova, Z.Həsanaliyev, X.Qasımov və başqalarının əsərlərinə də müraciət olunmuşdur.[2]

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatınəsas məqsədi XVI-XVIII əsrlərdə Şirvan bəylərbəyiliyinin sosial-iqtisadi tarixinin kompleks şəkildə araşdırılmasından ibarətdir. Qarşıya qoyulmuş məqsədin həll edilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

-Problemin öyrənilməsi səviyyəsini müəyyənləşdirmək və mövcud araşdırmaların elmi təhlilini vermək, mövzu ilə bağlı qaynaqları dərindən öyrənmək, yeni faktları təhlil etmək, pərakəndə halda olan mülahizələri sistemləşdirmək;

---

[1]Петрушевский И.П. Азербайджан в XVI-XVII вв// Сборник статей по истории Азербайджана. Вып.1, Баку: 1949, с.225-229;Петрушевский И.П. Очерки по истории феодалных отношенный в Азербайджане и Армении в XVI-начале XIX вв., Ленингад: 1949, 379 с.

[2]Гейдаров М.Х. Города и городские ремеслоАзербайджана в XIII-XVII вв. Баку: Элм, 1982, 280 с. ;Гейдаров М.Х. Ремесленное производство в городахАзербайджана в XVII в. Баку: А.Н. Азербайджан. ССР, 1967, 200 с.; Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: Elm, 1983, 151 s.:Əzimli D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə. Bakı: Turxan, 2014, 292 s.;Baxşəliyev A. B. Səfəvi-dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Dərs vəsaiti. Bakı: ADPU, 2009, 274 s.;Гусейн А.Ф. Османо-сефевидская война 1578-1590 гг. Баку: Нурлан, 2005, 214 с.;Nemətova M.X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı: Azərbaycan SSR EA, 1959, 142 s.;Гасанзаде Д. Г. Англо-Сефевидские отношения в конце XVI начале XVII веков (поматериалам английских источников). Баку: 2007.; Муганлинский Р.М. Азербайджанские государства XV-XVII вв. в анлийской историографии. Баку:1998; Dadaşova R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2008, 439 s.

-XVI əsrin 20-30-cu illərində Şirvanşahlarla Səfəvilər arasında münasibətlərin pisləşməsi, Şirvanşahların daxili müstəqilliyinin ləğv olunması səbəblərini müəyyənləşdirmək;

-XVI-XVIII əsrlərdə Şirvan bəylərbəyi olmuş tarixi şəxsiyyətlərin adları və hakimiyyət illərini dəqiqləşdirmək;

-Şirvan bəylərbəyiliyinin tarixi-coğrafi sərhədlərini, daxili inzibati ərazi vahidlərini müəyyən etmək;

-Bölgədə mövcud olan dövlət təsisatları, mənsəb və vəzifələrin hüquq və səlahiyyətlərinə aydınlıq gətirmək;

-Şirvan iqtisadiyyatının aparıcı sahələrinin vəziyyətini, ipəkçilik, neft hasilatının ixrac potensialında rolunu aydınlaşdırmaq;

-Bölgədən keçən yerli və beynəlxalq əhəmiyyətli ticarət yollarını, Şirvanın Şərq və Qərb ölkələri ilə iqtisadi əlaqələrinin səviyyəsini müəyyənləşdirmək, Şirvan bəylərbəyiliyinin iqtisadiyyatında kənd və şəhər təsərrüfatının nisbətinə aydınlıq gətirmək;

-Şəhər və kənd əhalisinin sosial tərkibini araşdırmaq, mənbələrdə Şirvan bölgəsində qeydə alınmış vergi və mükəlləfiyyətlərin mahiyyətinə aydınlıq gətirmək;

-Bölgədə mövcud olmuş torpaq mülkiyyəti formalarını təhlil etmək, aparıcı mülkiyyət növlərini müəyyənləşdirmək;

**Tədqiqat işinin elmi yeniliyi.** Vətən tarix elmində ilk dəfə olaraq Şirvan bəylərbəyiliyinin sosial-iqtisadi tarixi kompleks şəkildə tədqiqat obyektinə çevrilmişdir;

-Mənbə materialları əsasında bəylərbəyiliklə yanaşı, Şəki mahalında da sədr vəzifəsinin olması müəyyən edilmişdir;

-XVI-XVII əsrlərlə yanaşı, XVIII əsrdə Şirvanı idarə etmiş bəylərbəyilərin adları dəqiqləşdirilmişdir;

-Torpaq mülkiyyəti formalarının növləri ilə bağlı tarixşünaslıqda uzun müddət mövcud olmuş konsepsiya ilə müqayisədə son dövrlərdə yaranmış yeni yanaşmaya üstünlük verilmişdir;

-İcma torpaq mülkiyyət formasının əslində dövlət torpaqları kateqoriyasına şamil olunması vurğulanmışdır;

-Hakim təbəqənin sosial strukturunda yerli qədim oturaq əyanlar anlayışının sovet ideologiyasının təsiri altında yaranması göstərilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilir ki, dissertasiyada istifadə olunmuş faktiki materiallar və hasil edilmiş nəticələr:

-Universitetlərdə "Şirvan bəylərbəyiliyi" mövzusunda ixtisas kurslarının aparılmasında;

-Səfəvilər dövlətinin inzibati-idarə sisteminin tarixinə aid ümumiləşdirilmiş əsərlərin yazılmasında, dərslik və dərs vəsaitlərinin hazırlanmasında;

-Tarixi mövzuda elmi seminar və konfransların keçirilməsində geniş istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya BDU-nun "Azərbaycan tarixi" (təbiət farültələri üzrə) kafedrasında müzakirə olunaraq müdafiəyə buraxılmışdır. Tədqiqatın əsas elmi müddəaları müəllifin müxtəlif məcmuələrdə nəşr olunmuş məqalələrində və konfransdakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyatların siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Dissertasiyanın** giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, istifadə olunmuş mənbə və ədəbiyyatlar təhlil edilmiş, dissertasiya işinin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, xronoloji çərçivəsi, nəzəri-metodoloji əsası, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Birinci fəsil **"Şirvan bəylərbəyiliyinin yaranması və inzibati quruluşu**" adlanır. Üç yarımfəsildən ibarət olan bu fəslin "Şirvan XVI əsrin 20-30-cu illərində" olan birinci yarımfəslində Şirvanşahlar dövlətinin XVI əsrin 20-30-cu illər tarixinə geniş nəzər yetirilmiş, Səfəvi və Şirvanşahlar dövləti arasındakı qarşılıqlı münasibətlər araşdırılmışdır. Bu yarımfəsildə Səfəvilərin Şirvanşahlar dövləti ərazisinə 1500-1501-ci illər hərbi kampaniyası haqqında məlumatlar da öz əksini tapmışdır. Şah İsmayılın 1509-cu ildə Şirvan ərazisinə yürüşü zamanı Şirvan yenidən tabe edilsə də, Şirvanşahşahların daxili müstəqilliyinə son qoyulmamışdı[1]. 1509-cu ildə Şirvanda hakimiyyətə gələn Şirvanşah II İbrahimlə Şah İsmayıl arasındakı münasibətlər nigah diplomatiyası vasitəsilə daha da

[1]Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Fars dilindən tərcümə, müqəddimə və şərhlər Ə.H.Rəhimlidir. Bakı, Elm, 1996.s.42,; Шараф-хан ибн Шамсаддин Бидлиси. Шараф-наме. т. II. Перовод, предисловие, примечания и приложения Е.И. Васильевой. Москва: Наука, 1976, с.154

möhkəmləndirilmişdi. 1524-cü ildə Şirvanşah II İbrahimin vəfatınından sonra Şirvanın idarə olunması II Xəlilullah adı ilə tanınan Sultan Xəlilin əlinə keçdi.

Şah İsmayılın vəfatı və hakimiyyətə Şah I Təhmasibin gəlişindən sonra Şirvanşahlarla Səfəvi sarayı arasındakı isti münasibətlər tədricən dəyişməyə başladı. Araşdırmalar göstərir ki, Şirvanşahlarla Səfəvi sarayı arasında münasibətlərin gərginləşməsində Şah Təhmasibin yaxın ətrafının müəyyən rolu olmuşdur. XVI əsrin 30-cu illərin əvvələrindən etibarən Sultan Xəlillə Səfəvi sarayı arasında münasibətlər daha da gərginləşməyə başladı. 1535-ci ildə Sultan Xəlilin ölümündən sonra Şirvanda başlamış iğtişaşlar Şah I Təhmasibə Şirvanda baş verən seperatizmə son qoymağa şərait yaratmış və 1538-ci ildə Şirvan qəti olaraq Səfəvi dövlətinə birləşdirilmişdi.

**“Bəylərbəyiliyin yaranması, inzibat-siyasi quruluşu”** adlanan ikinci yarımfəsildə Şivan bəylərbəyiliyin yaranması və inzibati-siyası quruluşu mənbə materialları əsasında araşdırılmış və tədqiq edilmişdir. 1538-ci ildə Səfəvilərin Şirvana növbəti yürüşü nəticəsində Şirvanın çoxəsrlik dövlətçiliyinə son qoyuldu, Şirvanşahların daxili müstəqilliyi də ləğv edildi. Beləliklə də, tarixi Şirvan torpaqları Səfəvilər dövlətinin inzibati ərazi vahidlərindən birinə çevrildi.

Araşdırmalar göstərir ki, Şah I Təhmasibin hakimiyyətə gəlişindən sonra Səfəvi sarayı ilə Şirvanşahlar arasında münasibətlər tədricən gərginləşməyə başladı. 1537-38-ci illərdə Şirvanda baş verən qiyamdan istifadə edən I Təhmasib Şirvanşahların daxili müstəqilliyinə son qoyaraq Şirvan bölgəsinin Səfəvi dövlətinin bəylərbəyiliklərindən birinə çevirdi. Şirvanda müstəqil dövlətçilyin güclü olması və onun strateji mövqeyini yaxşı başa düşən Səfəvi sarayı ilk dövrlərdə Şirvan bəylərbəyi vəzifəsinə Səfəvi şahzadələrini təyin edirdi. Osmanlı sarayı ilə əlaqə yaradaraq Şirvanda Səfəvi hakimiyyətinə qarşı Əlqas Mirzə, Burhan Mirzə, Mehrab Mirzə, Qurbanəli, Qasım Mirzənin üsyan qaldırması bir tərəfdən Şirvanda güclü dövlətçilik ənənəsinin olması, digər tərəfdən dini ayrı-seçkiliklə bağlı olmuşdur. XVII əsrdə isə Şirvan bəylərbəyi vəzifəsinə qızılbaş əmirləri ilə yanaşı, bir çox hallarda qulamlar da təyinat alırdılar. Mənbə və tarixi ədəbiyyatların materialları əsasında XVII əsrin 70-ci illərinə qədər Şirvan bəylərbəyilərinin adları və hakimiyyəti illərini müəyyənləşdirmək mümkün olsa da, XVII əsrin sonu-XVIII əsrin əvvələrində bu vəzifəni tutanların

adları və hakimiyyət illərini tam dəqiqliyi ilə müəyyənləşdirmək mümkün olmamışdır.

Eyni sözləri Şirvan bəylərbəyiliyinin daxili-inzibati ərazi vahidləri haqqında da söyləmək olar. Mirzə Səmianın "Təzkirət əl-müluk" əsəri istisna olmaqla yerli mənbələrdə Səfəvilər dövründə Şirvan bəylərbəyiliyinin inzibati ərazi vahidləri haqqında ətraflı məlumatlara rast gəlmək mümkün deyildir. Halbuki, qısa müddətli Osmanlı işğalı dövründə (1590-1612) Şirvan bölgəsinin inzibati bölgüsü Osmanlı mənbələrində ətraflı əksini tapmışdır

**"Bəylərbəyiliyin statusu. Mahal və şəhər idarəçiliyi"** adlanan üçüncü yarımfəsildə bəylərbəyiliyin statusuna toxunulmuş və mahal və şəhər idarəçiliyinin özünəməxsus xüsusiyyətləri şərh olunmuşdur.

Məlum olduğu kimi, Azərbaycan Səfəvilər dövləti inzibati baxımdan valilik və bəylərbəyiliklərə bölünürdü. Ən iri inzibati-ərazi vahidlərindən biri məhz bəylərbəyilik hesab edilirdi. Bəylərbəyiliklər isə öz növbəsində daha kiçik inzibati ərazi vahidlərinə-mahal və nahiyələrə bölünürdü[1].

İlk dövrlərdə Şirvan bəylərbəyiliyi hakim sülalə üzvləri tərəfindən idarə olunsa da, sonralar Ustaclı, Zülqədər, Rumlu, Qacar tayfalarının təmsilçiləri, bəzi dövrlərdə isə şah qulamlarının idarəsi altında olmuşdur.[2] Bəylərbəyilər sultan, xan titulu daşıyaraq vilayətlərdə mülki və hərbi hakimiyyəti öz əllərində cəmləndirmişdilər. Səfəvi şah sarayında olan vəzifələrin əksəriyyəti , o cümlədən vəzir, sədr, eşikağası, divanbəyi, mehmandar və s. vilayət hakimlərinin sarayında da olmuşdur. Vilayətlərdə mütləq hakimiyyətə malik olan bəylərbəyi şah qarşısında məsuliyyət daşımış, şah sarayına vergi vermiş, ilk çağırışda vilayət ordusu ilə hərbi səfərbəyliyə cəlb olunmuşdur. Bəylərbəyiliklər özləri də inzibati baxımdan mahallara bölünmüş və mahalları nadir hallarda xan, adətən isə sultan və ya bəy titulu daşıyan hakimlər idarə etmişlər. Bəylərbəyilərin vilayətdə icra etdiyi vəzifələri mahallarda mahal hakimləri yerinə yetirirdilər. Hüquqi baxımdan mahal hakimləri bəylərbəyinə tabe olsalar da, onların vəzifəyə təyin edilməsi və işdən çıxarılması şah tərəfindən həyata keçirilirdi.

---

[1] Петрушевский И.П.Очерки по истории феодальных отношенный в Азербайджане и Армении в XVI-начале XIX вв., Ленинград: 1949.s.118

[2]Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, с.195;Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər. (XVI-XVII əsrlər) Bakı: Elm. 1977, s.25.

Mühüm strateji-coğrafi mövqedə yerləşən Şirvan bəylərbəyiliyinin Bakı, Dərbənd, Şəki və Ərəş mahalları haqqında qaynaqlarda nisbətən geniş məlumatlar olsa da, Salyan, Quba, Alpout, Cəmişkəzək və Ağdaş mahalları haqqında demək olar ki, məlumatlar yox dərəcəsindədir.

Mənbələrdə Şirvan vilayətinə aid olan şəhərlərin inzibati-idarə sistemində kələntərin rolu, barəsində müəyyən məlumatlara rast gəlinsə də, şəhər idarəçiliyində digər təsisatlar və mənsəblər haqqında bilgilər məhduddur.

**İkinci fəsil “”Şirvan bəylərbəyiliyinin iqtisadi həyatı”** adlanır. Üç yarımfəsildən ibarət olan fəslin **“Kənd təsərrüfatı”** adlanan birinci yarımfəslində kənd təsərrüfatının əhəmiyyətinə toxunulmuşdur. Qeyd edilmişdir ki, Səfəvi sülaləsinin hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən biri kənd təsərrüfatı olmuşdur. Kənd təsərrüfatı məhsullarının böyük bir qismi daxili tələbatı ödəyirdi. Həmin məhsulların bir hissəsi isə Səfəvi dövlətindən ixrac edilirdi. Oxşar hal Səfəvilər dövlətinin mühüm inzibati-ərazi vahidlərindən biri olmuş Şirvan bəylərbəyiliyinin ərazisində də müşahidə olunurdu.

XVI əsrin əvvəllərində Səfəvilər dövlətinin yaranması, tarixi Azərbaycan torpaqlarının vahid dövlət çərçivəsində birləşməsi, ara müharibələrinə son qoyulması, vahid iqtisadi siyasətin həyata keçirilməsi ölkənin iqtisadi həyatında canlanmaya səbəb oldu[1]. Səfəvi hökmdarlarından Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Şah I Səfinin hakimiyyəti dövrlərində həyata keçirilən vergi islahatları, vergi güzəştləri kənd təsərrüfatının inkişafına müsbət təsir göstərən amillərdən olmuşdu.

Bəhs olunan dövrdə Şirvan bəylərbəyiliyinin iqtisadiyyatının mühüm sahələrindən birini kənd təsərrüfatı və onun aparıcı sahələrindən olan əkinçilik və maldarlıq təşkil edirdi. Bu sahələrin inkişafı üçün Şirvan bölgəsində tarixən əlverişli təbii coğrafi şərait mövcud olmuşdur.

**“Şirvan bəylərbəyiliyində sənətkarlıq”** adlanan ikinci yarımfəsildə Şirvan bölgəsində sənətkarlıq məsələlərinə toxunulmuş və sənətkarlığın əsas sahələri tədqiq olunmuşdur.

Səfəvilər dövründə Şirvan bəylərbəyiliyi əhalisinin əsas məşğuliyyət növlərindən biri də sənətkarlıq idi. Kəndlərdə sənətkarlığın müxtəlif növləri ilə məşğul olan sənətkarlar olsa da, əsas sənətkarlıq mərkəzləri qəsəbə tipli yaşayış məskənləri və şəhərlər idi. Azərbaycanın, o cümlədən Şirvan

---

[1]Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006.,s.22

vilayətinin əlverişli təbii-coğrafi mövqeyi, zəngin faydalı qazıntıları və xammal ehtiyatları sənətin müxtəlif sahələrinin inkişafı üçün münbit zəmin yaradırdı. Şirvan bölgəsində xam ipək, kətan, pambıq, yun istehsalının, həmçinin zəfəran, marena və s. kimi boyaq bitkilərinin becərilməsi sənətkarlığın əsas sahələrindən biri olan toxuculuğun inkişafı üçün zəngin xammal mənbəyi yaradırdı. Eyni zamanda bölgədə heyvandarlığın geniş yayılması gön-dəri sahəsi üzrə müxtəlif sənət növlərinin sürətli inkişafına təkan verirdi. Azərbaycan, həmçinin Şirvan vilayətində müxtəlif filiz yataqlarının olması, o cümlədən xarici ölkələrdən gətirilən müxtəlif metallar metalişləmə sənətinin inkişafında xammal bazası rolunu oynayırdı.

XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Səfəvi dövlətində baş verən iç proseslər, həmçinin bəzi xarici amillərin təsiri nəticəsində başlanmış iqtisadi gerilik və tənəzzül Şirvan bəylərbəyi ərazisində də sənətkarlığın inkişafına öz mənfi təsirini göstərmişdi.

**"Bəylərbəyiliyin iqtisadiyyatında ticarətin yeri"** adlanan üçüncü yarımfəsildə Şirvan bəylərbəyiliyində ticarətin roluna toxulmuş və bölgədən keçən əsas ticarət yolları tədqiq olunmuşdur.

Şirvan bəylərbəyiliyinin iqtisadiyyatında kənd təsərrüfatı, sənətkarlıqla yanaşı, daxili və xarici ticarət mühüm əhəmiyyət kəsb edirdi. Şirvan bölgəsinin zəngin təbii sərvətləri, xüsusilə də xam ipəyi, ipəkçilik məhsulları, nefti, duzu, müxtəlif sənətkarlıq məlumatları daxili və xarici ticarətin inkişafı üçün əlverişli zəmin yaradırdı. Ticarət dövlətin əsas gəlir mənbələrindən birini təşkil etdiyi üçün Səfəvi sarayı bu sahənin inkişafında xüsusilə maraqlı idi. Dövlət səviyyəsində ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi, ticarət yolları boyu karvansaraların inşa edilməsi, gömrük məntəqələrinin tikilməsi, ticarətdən alınan vergilərin nizamlanması ticarətin inkişafına qayğı ilə yanaşmanın bariz nümunəsini təşkil edirdi. Bəhs olunan dövrdə əsas ticarət mərkəzləri rolunu Şirvan şəhərləri oynayırdı. Elm, mədəniyyət, sənətkarlıq mərkəzləri olmaqla bərabər Səfəvilər dövründə Şirvan bəylərbəyiliyinin şəhərləri daxili və beynəlxalq ticarətin mühüm mərkəzləri hesab edilirdi. Mənbələrin məlumatlarına görə, Şirvanın Şamaxı, Ərəş, Dərbənd, Şəki, Bakı kimi şəhərləri ümumdövlət miqyaslı[1], Şabran, Niyazabad, Salyan, Cavad, Mahmudabad şəhərləri isə yerli əhəmiyyətli şəhərlər rolunu oynayırdı.

---

[1]Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, 307 с.

XVI-XVII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri, XVII əsrin sonları-XVIII əsrdə bütün ölkə miqyasında başlanmış iqtisadi tənəzzül Şirvan bəylərbəyiliyinin iqtisadiyyatına, insan potensialına ağır zərbə vurmaqla, onun ticarət əlaqələrinin zəifləməsinə də ağır təsir göstərsə də XVIII əsrin əvvəllərində belə, ölkənin beynəlxalq çəkişmə meydanına çevrilməsinə rəğmən Şirvan şəhərləri ticarət-sənətkarlıq mərkəzləri kimi öz fəaliyyətlərini davam etdirirdilər.

Dissertasiyanın üçüncü fəsli **"Sosial münasibətlər"** adlanır. Üç yarımfəsildən ibarət olan bu fəslin **"Şirvan bəylərbəyiliyi əhalisinin sosial tərkibi"** adlanan birinci yarımfəsili bəylərbəyiliyin əhalisinin sosial tərkibinin öyrənilməsinə həsr olunmuşdur.

Sosial münasibətlər cəmiyyət həyatının bir çox sahələrini (əhalinin sosial, etnik, dini tərkibi, demoqrafik proseslər, mülkiyyət münasibətləri, vergi və mükəlləfiyyətlər, sosial etiraz formaları və s.) əhatə edir. Bu problemlərin ətraflı araşdırılması bir sıra çətinliklərlə bağlıdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, dövrün əsasən siyasi, qismən də iqtisadi, mədəni və etnoqrafik tarixi ilə müqayisədə sosial münasibətlər tarixi ilə bağlı mənbələrdə məlumatlar az və dağınıq haldadır. XVI-XVIII əsrlər Azərbaycan, o cümlədən Şirvan bəylərbəyiliyinin sosial tarixi ilə bağlı siyahıyaalma və ya statistik məlumatların dövrümüzə gəlib çıxmaması problemin araşdırılmasını mürəkkəbləşdirən əsas amillərdən biridir. Digər tərəfdən, qaynaqlarda qeydə alınmış bir çox istilah və terminlərin mahiyyətinin tam açıqlanmaması, müxtəlif mənsəb və vəzifələrin hüquq və səlahiyyətlərinin dəqiq göstərilməməsi də müəyyən çətinliklərin yaranmasına səbəb olur. Bütün bunlara baxmayaraq dövrün səlnamə tipli qaynaqlarında, həmçinin sənədli mənbələr, səyyah gündəliklərində sosial münasibətlər haqqında maraqlı məlumatlar öz əksini tapmışdır.

XVI-XVIII əsrlərdə Şirvan bəylərbəyiliyində əhalinin sosial strukturu bütövlükdə Səfəvilər dövləti əhalisinin sosial tərkibi ilə oxşarlıq təşkil etmiş, ciddi bir fərq olmamışdır. Şirvan əhalisinin sosial tərkibində say baxımından kəndlilər və sənətkarlar aparıcı mövqeyə malik olmuşlar. XVI-XVIII əsrlərlə bağlı dövrümüzə siyahıyaalma materialları, vergi dəftərləri kimi qaynaqların gəlib çıxmaması əhalinin sosial tərkibi və say dinamikası ilə bağlı konkret rəqəmlərin aşkarlanması imkanlarını məhdudlaşdırır. Bəhs olunan dövrdə bir sıra hadisələr Şirvan əhalisinin sosial tərkibinə ağır təsir göstərmişdi. Xüsusilə də, 1578-1590-cı illərdə Səfəvi-Osmanlı müharibəsinin əsas hərbi əməliyyatlarının Şirvan bəylərbəyiliyi ərazisində

getməsi və XVII əsrin əvvəllərində bölgənin azad edilməsi uğrundakı mübarizə əhalinin demoqrafik durumuna, həmçinin sənətkarlıq və ticarətin inkişafına mənfi təsir göstərmişdi.

**"Şirvanda torpaq mülkiyyəti formaları"** adlanan ikinci yarımfəsildə bölgədəki torpaq mülkiyyət formaları araşdırılmış, bölgədə mövcud olan torpaq inistutları tədqiq olunmuşdur.

B.M. Zaxoder və İ.P.Petruşevskinin fikrincə, müsəlman hüququna görə torpaq üzərində mülkiyyət formasının beş növü olmuşdur: 1) Dövlət və ya divan torpaqları-əraziyi divan; 2) Şah və ailə üzvlərinin domenləri-xassə, xasseyi şərifə; 3). Müsəlman və xristian din xadimlərinə məxsus torpaqlar-vəqf; 4) Xüsusi mülkiyyətdə olan torpaqlar-mülk və ya ərbabai; 5) Kənd icmalarına məxsus torpaqlar-camaati-deh. Səfəvişünas alim O.Əfəndiyev də bu konsepsiyanı qəbul edərək bildirir ki, ayrı-ayrı dövrlərdə bu torpaq mülkiyyəti növləri müəyyən dəyişikliklərə məruz qalmış, bəzən isə rəsmi hüquqda nəzərdə tutulmayan torpaq inistutları da meydana çıxmışdır

Araşdırmalar göstərir ki, XVI-XVIII əsrlərdə Səfəvi dövlətində mövcud olan torpaq mülkiyyəti növlərinin hamısı Şirvan bəylərbəyiliyi ərazisində də mövcud olmuşdur. Divan, xassə, icma və mülk torpaqları ilə müqayisədə dövrün qaynaqlarında Şirvan bəylərbəyiliyi ərazisində soyurqal, tiyul və vəqf torpaqları haqqında məlumatlara daha çox rast gəlinir. Bölgədə xassə torpaqlarının nadir hallarda xatırlanması və ya ümumiyyətlə yad edilməməsi görünür Şirvanın sərhəd bölgəsində yerləşməsi, Səfəvi-Osmanlı savaşları zamanı hərb meydanına çevrilməsi ilə bağlı olmuşdur.

**"Vergi və mükəlləfiyyətlər sistemi"** adlanan üçüncü yarımfəsildə bölgədəki vergi və mükəlləfiyyətlər sistemi, bölgədə mövcud olan əsas vergilərin miqdarı və toplanması üsulları tədqiq olunmuşdur.

Vergi və mükəlləfiyyətlər dövlət xəzinəsinin əsas gəlir mənbəyini təşkil etdiyi üçün Səfəvilər dövründə də bu məsələyə dövlət miqiyasında böyük diqqət ayrılırdı. Səfəvilər dövründə mövcud olan vergi və mükəlləfiyyətlər XIII-XIV əsrlərdə qəti olaraq formalaşmış sistemdən o qədər də fərqlənmirdi.

Aparılan araşdırmalar göstərir ki, Səfəvilər dövründə imperatorluğun bütün ərazisində mövcud olan vergi və mükəlləfiyyətlər demək olar ki, Şirvan bəylərbəyi ərazisində də qeydə alınmışdır. Mənbələrdə əksini tapmış 40-dan artıq vergi və mükəlləfiyyətlər əhalinin məşğuliyyət sahələrinə görə təbəqələr arasında bölünmüşdür. Belə ki, bir sıra vergilər əkinçiliklə,

bəziləri heyvandarlıqla, bəziləri isə sənətkarlıq və ticarətlə məşğul olan əhalidən alınmışdır. Bununla yanaşı, mənbələrdə əksini tapmış terminlərin bəziləri bir vergi və ya mükəlləfiyyətin sinonimi kimi müxtəlif formalarda işlədilmişdir. Səfəvi şahlarının bəzi vaxtlarda müxtəlif hadisələrlə bağlı vergi sahəsindəki güzəştli tədbirləri müəyyən müddətdə sosial gərginliyi səngitsə də, zaman keçdikcə vergi və mükəlləfiyyətlərin artması müşahidə olunmuşdur.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, müvafiq elmi ümumiləşdirmələraparılmışdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Şirvan bəylərbəyiliyinin təşkili // Bakı Dövlət Universteti. Tarix və onun problemləri jurnalı. Bakı, 2013, №1, s. 31-33.

2. Şirvan XVI əsrin 20-30 cu illərində // Bakı Dövlət Universteti. Humanitar elmlər seriyası. Bakı, 2014, №2, s.195-200.

3. Şirvan bəylərbəyiləri // Azərbaycan Dövlət Pedaqoji Universteti // Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi, Pedaqoji Universtet xəbərləri, Bakı, 2014, №2, s.125-130.

4. Şirvan bəylərbəyiliyində vergi və mükəlləfiyyətlər // Bakı Dövlət Universteti // Tarix və onun problemləri,Bakı, 2015, №3

5. Статус Ширванскогобеглярбекства. Городское и магальное управление, Научноеиздание. Сборникнаучныхработ «Гилея: научныйвестник». Выпуск 97(6). Киев, 2015, с. 148-152

6. Имущественные отношения в Ширванскомбеглярбекстве, Сборник публикаций Научно-информационного центра «Знание» по материалам VII международной заочной научно-практической конференции: «Развитие науки в XXI веке» г. Харьков: сборник со статьями (уровень стандарта, академический уровень). – Д.: научно-информационный центр «Знание», 2015. с. 26-29.

7. Şirvan bəylərbəyiliyində sənətkarlıq // Azərbaycan Milli Elmlər Akademiyası // Tarix İnistutu // Elmi əsərlər 67-ci cild, Bakı, 2017, s. 49-60.

**Б.В. Баба**

## Административная и социально-экономическая история Ширванского беглярбекства Азербайджанского государства Сефевидов

### Резюме

Диссертация посвящена административной и социально-экономической истории одной из важных административных единиц Азербайджанского государства Сефевидов- Ширванскому беглярбекству.

Изучаемая проблема была исследована на основе нарративных, документальных источников и сведений путешественников XVI-XVIII вв.

Диссертация состоит из введения, трех глав и заключения.

Во **Введении** обоснована актуальность темы, классифицированы и анализированы источники, историографические работы по исследуемой теме, определены хронологические рамки, цели, задачи и методологическая основа представленной работы, показана научная новизна, а также теоретическая и практическая значимость изучаемой темы.

Первая глава диссертации называется «**Образование Ширванского беглярбекства и его админстративная структура**». В этой главе раскрывается политическая ситуация в Ширване в 20-30-х гг.XVI века, прослеживаются отношения Ширваншахов с Сефевидским двором, процесс образования и административно-политическая структура Ширванского беглярбекства, сущность статуса беглярбека, правителей магалов, городского управления.

Вторая глава называется «**Экономическая жизнь Ширванского беглярбекства**». В этом разделе на основе многочисленных синхронных источников проанализированы состояние и основные направления сельского хозяйства, ремесленного производства, внутренняя и внешняя торговля Ширванского беглярбекства, их место в системе экономики Сефевидского государства.

В третьей главе под названием «**Социальные отношения**» изучаются социальная структура населения, виды земельной собственности, налогов и повинностей в Ширванском беглярбекстве.

В **Заключении** обобщены результаты исследования, сделаны соответствующие научные выводы.

**B.V. Baba**

# The administrative and social-economic history of the Shirvan province of Azerbaijan Safavid state

## SUMMARY

The thesis the deals with the administrative and social-economic history of the Shirvan province, which is one of the importantadministrative - territorial unities of Azerbaijan Safavid state. Researching problem have been analyzed on the basis of primary resources including narrative works and documents with travelers' diaries belonging to the XVI – XVIII centuries.

This thesis consists of an introduction, three chapters, a conclusion and references. Introduction covers the substantiation of the relevance of the topic, the classification of resources, explaining of the historical works belonging to this problem, the identification of the methodological basis, chronological limit, purpose and the task of subject, scientific innovation and theoretical and practical significance of the problems, as well.

The first chapter of the thesis, titled as 'The emergence and administrative structure of Shirvan province" examines the political situation in Shirvan in the 20-30s of XVI century and describes the relationships between the Safavid Palace and Shirvanshahs. The chapter also researches the emergence and administrative-political structure of Shirvan province, the status of province, the status of the mahal governors, and the system of city management.

The second chapter is titled as "The economic life of Shirvan province". This chapter analyzes the general situation and basic branches of agriculture, handcraft, domestic and foreign trade and determines the basic role of the Shirvan province in the economic life of the Safavid state basing on many primary and secondary resources.

The third chapter of the thesis considers the social relationships in the Shirvan province. This chapter also researches the social structure of the population of Shirvan province, the types of the land ownership in the regions, taxes and duties.

The result of the research were summarized and it introduces effective information for the historiography of Shirvan province.

**МИНСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Баба Бахруз Видади огль**

# Админстративная и социально-экономическая история Ширванского беглярбегства Азербайджанского государства Сефевидов

Специальность: 5503.02 – Отечественная история

**АВТОРЕФЕРАТ**

**Диссертации на соискании ученой степени доктора философии по истории**

**БАКУ – 2018**